# “Torpaqlarımız işğaldan azad olunana kimi döyüşməliyəm”

Respublika .- 2025.- 15 may(№99).- S.13



**Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan əsgərlərimizdən biri də Zaur Dövlətovdur. Müharibə başlayanda Zaur Türkiyədəki hotellərdən birində çalışsa da, Vətən savaşının başladığını eşidəndə iş yoldaşları ilə hallalaşıb ölkəyə qayıdır, könüllü cəbhəyə gedir.**

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Zaur Dövlətov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı Şuşa şəhəri uğrunda gedən döyüşlərdə iştirak edib. Zaur oktyabrın 5-də cəbhəyə yollanıb, noyabrın 9-da Şuşa ətrafında gedən döyüşlərdə yaralanıb. Onun yaralanmasından saatlar sonra hərbi əməliyyatların dayandırılması haqda razılaşma əldə olunub. Təəssüf ki, Zaurun yarası ağır olduğundan həkimlər onu xilas edə bilməyiblər, döyüşçü noyabrın 12-də xəstəxanada şəhidlik zirvəsinə yüksəlib.

"Qarabağda hərbi əməliyyatlar getdiyi bir vaxtda mən burada işimə davam edə bilmərəm. Torpaqlarımız işğaldan azad olunana kimi döyüşməliyəm", - bu könüllü cəbhəyə yollanan Zaur Dövlətovun hoteldəki iş yoldaşlarına son sözü olub.

Onun şəhid olması xəbəri Kəmərdəki dostları və iş yoldaşlarını da dərindən kədərləndirib. Hotelin idarə heyətinin sədri Mustafa Kılıc Zaurun xatirəsinə həsr edilmiş anım tədbirində deyib: "Zaur Dövlətov hər kəs tərəfindən sevilirdi. O, insanlara yardım etməyi çox severdi, heç kimi incitməzdi. Zaur əsl qəhrəmandı. Sentyabr ayında hoteldəki dostlarını ziyarət etdi, dedi ki, vidalaşmağa gəlib. "Niyə gedirsən, getmə Zaur. Qal, işinə davam et" - dedim. Amma razılaşmadı. Dedi ki, torpaqlarım işğal altındadır, qələbə uğrunda döyüşməlidir. Qəhrəman oğlan idi. Azərbaycana qayıdandan sonra oktyabrın 5-də orduya qatıldı və döyüşə yollandı. Noyabrın 9-da Zaurun vurulduğunu öyrəndik. 12 noyabrda isə şəhid oldu. Qəhrəman Zaurumuza Allah rəhmət eləsin deyirik, ailəsinə, türk millətinə başsağlığı veririk. Zaur əsl Azərbaycan türkü idi, bizim övladımız idi, bizlərdən biriydi. Məkanın cənnət olsun, mənim balam. Şəhid xəbərini eşitməyimiz çox kədərli an idi. O xəbər gələndə bütün dostları, iş yoldaşları ağladı. Məkanı cənnət olsun".

Zaurun iş yoldaşı olmuş 28 yaşlı Anastasiya Selutina isə xəbəri eşidəndən göz yaşlarını saxlaya bilmir. Deyir ki, Zaurla 2 il əvvəl tanış olub, dostlaşıblar: "Mən Türkiyəyə işləmək üçün gəlmişəm. Mənim üçün yad olan ölkədə çətin idi. Amma Zaur kömək etdi, tez bir zamanda şəraitlə uyğunlaşdım".

Anastasiya deyir ki, Zaur yardımsevərliyi ilə çoxlarına nümunə olub. Çalışqanlığı ilə hoteldə böyükdən-kiçiyə hamının hörmətini qazanıb. "2 ay əvvəl görüşdük, hamı onun gəlişinə sevindi. Bilirsiz, çoxları tərəfindən sevilmək hər insana qismət olmur. Ona hoteldə işləməyi təklif etdilər. Zaur Türkiyədə qalıb işləyə bilərdi. Amma o, döyüşməyi seçdi. Gedərkən "şəhid olmasam gələcəm. Gələcək mövsümdə birlikdə çalışacağıq" dediklərini unuda bilmirəm. Zaur arzusuna çatdı", - Anastasiya göz yaşlarına boğularaq deyib.

Hoteldəki mağazalardan birinin sahibi, Türkiyə vətəndaşı Natalia Spirova da Zaurun xatirəsini yad edənlərdən biridir. Spirova xatirələrində qeyd edir ki, Zaur öz davranışları ilə Azərbaycanı yaşadırdı. Son görüşümüzdə söylədiklərini xatırlayıram, sanki bir daha geri qayıtmayacağını hiss edirdi. Getməmişdən qabaq mağazamıza gəldi, "bacı, sizdən Türkiyə yazılı köynək alım, səndən xatirə olsun" dedi, əlimi öpdü. Köynəyi hədiyyə vermək istədim, götürmədi, pulunu ödədi. Mən hotelin tekstil işlərinə baxıram, o an düşünə bilmədim ki, Zaurla son görüşümüzdür. Nə deyəcəyimi bilmirəm... Zaur Azərbaycana çox bağlı idi, imkan düşən kimi Qarabağdan danışırdı. Yaxşı ki, onun kimi insanlar var, yaxşı ki, Zaur kimi birini tanıdım. Dünya Zaurlarla gözəldir".

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Prezident İlham Əliyevin sərəncamlarına əsasən Zaur Dövlətov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**M.CƏFƏROV,**
**"Respublika".**